İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün,
çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir
gənclik üçün, düşünərək yaşayanlar üçün, xoşbəxt bir
ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün,
həyat səhifələrimizi parlaq imza sahiblərinin
qələmi ilə yazmaq üçün

parlaq imzalar

Kitabın sahibi: _____

Oxu tarixi: _____

Ürək ver: 

QƏTL GÜNÜ

YUSİF SƏMƏDOĞLU

parlaq
İMZALAR

Baş redaktor:	Toğrul MUSAYEV
Redaktor:	Saday BUDAQLI
Korrektorlar:	Flora ƏLİYEVA İlahə ƏHMƏDOVA
Tərtibatçı:	İsmayıl SÜLEYMANLI
Cildin illüstrasiyası:	Büşra KAYGIN GAFAROV
Cildin dizaynı:	ART&COPY

Yusif Səmədoğlu
QƏTL GÜNÜ

Bakı, “Parlaq İmzalar” Nəşriyyatı – 2026, 304 səh.

© “Yazıçı” nəşriyyatı / 1987
© Parlaq İmzalar MMC / 2026
Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 160
Modern Azərbaycan klassikləri | 3

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
/parlaqimzalar
0559697259 / 0559897259

16+

Mətbəə: “AVE PRİNT” MMC
SENTYABR / 2026

Ön söz əvəzi

Xalqın özünüdərkinin formalaşmasında milli ədəbiyyatın rolu danılmazdır. Milli ədəbiyyatın əsas amilləri millətin dili, mədəniyyəti, təfəkkür tərzi, xalqın keçdiyi tarixi mərhələlərin xarakterik xüsusiyyətləri, o cümlədən insanların sosial-mənəvi palitrasında özünü göstərir. Heç şübhəsiz ki, sadalanan amillərin içərisində dil faktoru ən mühüm yerlərdən birini tutur.

Bildiyiniz kimi, Azərbaycan nəsrinin ən parlaq dövrü XX əsr hesab olunur. Sovet dövrünün ideoloji buxovlarını özünəməxsus yazı dili və fərdi ədəbi üslubu ilə qırmağa çalışan İsa Muğanna, Sabir Əhmədli, Yusif Səmədoğlu, Anar, Elçin, İsi Məlikzadə, Mövlud Süleymanlı, Sara Oğuz və sair kimi müəlliflərin qələmə aldığı bir-birindən maraqlı bədii əsərlər sayəsində Azərbaycan ədəbiyyatı yeni bir mərhələyə qədəm qoymuşdur. Onların qələmə aldığı əsərlərdə Azərbaycan insanının daxili dünyası, keçirdiyi mənəvi böhranlar, xalqın üzləşdiyi sınaqlar daha həyati və yüksək estetik meyarlarla oxuculara təqdim edilib. Həmin əsərlərin mövzuları bir-birindən fərqləndiyinə görə onların timsalında ədəbi-bədii yazı dilimiz, üslubumuz da yenilənmiş, inkişaf etmiş və rəngarəng olmuşdur.

Ancaq təəssüf ki, müstəqillik illərimizin əvvəllərində torpaqlarımızın işğal olunması və bu ağrı-acılı, qan-qadalı günlərdə baş verən dəhşətli hadisələr ölkəmizə və insanlarımıza fiziki-mənəvi cəhətdən ciddi zərbə vurduğu kimi, ədəbiyyatımızın inkişafına da öz mənfi təsirini göstərmişdir. Belə ki, nəsillər arasındakı mədəni-ədəbi

əlaqələr zəifləmiş, eləcə də yerli müəlliflərin yeni nəslə tanıdılmasında, eyni zamanda onların qələmə aldığı dəyərli əsərlərin oxuculara çatdırılmasında ciddi problemlər ortaya çıxmışdır. Nəticədə öz ədəbiyyatına bələd olmayan, mütaliə seçimində digər dillərə və əcnəbi yazıçılara üstünlük verən yeni nəsil oxucular formalaşmışdır.

Şükürlər olsun ki, dövlət və millətimizin sarsılmaz birliyi, fiziki və mənəvi gücü sayəsində müqəddəs torpaqlarımızı özümüzə qaytardıq; itirdiklərimizi bərpa edirik, dağıdılanları qururuq, yaralarımızı sağaldırıq. İndi mədəniyyət və ədəbiyyat sahəsində də itirdiklərimizin bərpasına və inkişaf etdirilməsinə həmişəkindən daha münbit zəmin və daha çox ehtiyac yaranıb. Çünki millət kimi var olmaqda ərazi bütövlüyü necə vacib amildirsə, milli kimliyin qorunmasında ədəbiyyatın və mədəniyyətin rolu da bir o qədər mühüm məsələdir.

Təqdim etdiyimiz "Modern Azərbaycan klassikləri" seriyası qismən də olsa, həmin ehtiyacı ödəmək məqsədi ilə ərsəyə gəlib. Bu seriyada yüksək bədii dəyərə malik əsərlər və parlaq imzalarımız çağdaş oxucularımıza yeni formatda təqdim olunur.

Uzun müddətdir üzərində işlənilən bu seriyanın ərsəyə gəlməsində bir sıra dəyərli insanların dəstəyi olmuşdur. Burada onlara təşəkkür etməyi özümüzə borc bilirik:

Əsərlərin seçilməsində verdikləri tövsiyələrə görə dəyərli ədəbiyyatçılarımız İlqar Fəhmiyə, Səlim Babullaoğluna, Fərid Hüseynə və Aminə, seriyanın dizaynının hazırlanmasında göstərdikləri dəstəyə görə Ramin Həsənəlizadəyə, Bayram Qafarova, nəşr prosesindəki məsləhətləri üçün Ruslan Hümbətova və xüsusilə seriyanın nəşrində göstərdikləri dəstəyə görə Anar Əliqulov və Şəhram Oromiyə təşəkkür edirik.

"Parlaq İmzalar" nəşriyyatı

Gözümün ağı-qarası iki qızıma:
Mehribana və Humaya

Дәрд дә азар
кими, кәләндә
батманла кәлир.
Һәлә улдузлар
тәкәмсеҗрәкди
– боз сәмада
бозумтул ишыг
варды...

– Yolun haradır, qardaş?!
– Son mənzilədir, bacım.

(Bir xəstənin qulağına gələn səslərdən)

Dərd də azar kimi, gələndə batmanla gəlir.

Hələ ulduzlar təkəmseyrəkdi – boz səmada bozumtul işıq vardı, gah öləziyirdi, elə bil sönmək istəyirdi, gah da par-par parıldamağa başlayırdı. Külək hələ əsmirdi, hərdən qoşa vələsin kəlləsində ləpədöyənin səsinə bənzər bir səs qopurdu, deyirdin yaxınlıqda dəniz var, amma bu səsdən adam diksinirdi. Burada kim vardısa, bilirdi ki, çox-çox uzaqlarda, haradasa dünyanın o başında bir külək yatağından baş qaldırır, Baba Kahanın zülmətində gərnəşir, oradan çıxıb ağır-ağır, sürünə-sürünə, batman ləngəri ilə torpaqda dərin şırımlar açırdı, daş-qayanın gövdəsində uğultu sala-sala bu başıbəlalı dünyaya meydan oxumağa hazırlaşırdı. Burada kim vardısa, hələ çox-çox uzaqlarda həmləyə

hazırlaşan küləyin qarğışını eşidirdi: ay ikiayaqlı bəndələr, kökünüz kəsilsin sizin!

İnsanlar küləkdən bezmişdi, külək də insanlardan.

Qoşa vələsdən uzaqlarda, dağ döşündən başlanan meşənin seyrəkliyində, ağacların arasında bir qoca canavar qulaqlarını şəkləyib şöngümüşdü. Canavarın selikli burnu iy almışdı – dəmir iyi, qan iyi. Amma canavar da qorxu içində idi, ürəyinə nəsə dammışdı, bilirdi ki, ikiayaqlı bəndələrin düşərgə saldıqları yerə bu gün yavuq düşmək olmaz: oradan qarışıq səslər gəlirdi, dəmir dəmirə dəyirdi, elə bil kimsə zindanda çəkic çalırdı, at nallayırdılar, nədir, amma bütün bu qarma-qarışıq səslərdə vahimə və xəbərdarlıq vardı – nə canavar, nə ayı, heç quş da quşluğu ilə gərək bu gün ora yaxın düşməyəydi, çünki bu gün Baba Kahanın zülmətində nəsə başqa bir əhvalat baş verməli idi – külək bütün aləmin, daşın, torpağın, göylərin, ulduzların qəzəbini canına hopdurmuşdu, dünyanın ikiayaqlılarına hədə göndərirdi: gəlirəm! Gəlirəm ki, haqq-hesab çəkəm, gəlirəm ki, görüm bu ikiayaqlı, dəmir libaslı, nizəli-qalxanlı, aylarla su üzü görməyən, kirdən-pasdan sifətləri qaralıb mis rənginə çalan bu ikiayaqlı şeytanlar niyə belə qudurublar? Gəlirəm ki, yuxusuz gözlərdəki kinin, hiddətin səbəbindən agah olam, qaysaq bağlamış dodaqların arasından çıxan tüpürcəkli söyüşlərin mənasını anlayam, bu payız gününün sazağında çiyin-çiyinə verib dayanmış, çadırların həndəvərində oturmuş, yorğunluqdan su qaynatmağa da taqətləri

qalmamış, əti çiy-çiy yeyən, sonra qana bulaşmış dodaqlarının seliyini sifətlərinə yayan ikiayaqlı bəndələr bu bəlalı dünyadan nə istəyirlər! Gəlirəm ki, düşərgənin lap yaxınlığında meyitləri üst-üstə qalayıb çürüyən cəsədlərin üfunətini hiss etməyən, döyüş yoldaşlarını basdırmağa belə gücü qalmayan, günəş işığından gizlənən bu ikiayaqlı qanadsız yarasalar nə vaxt qandan doyacaqlar?.. Amma hələ küləyin gəlməyinə çox vardı. Həm mənzil uzaq idi, həm də arada dağlar, dərələr, ormanlar vardı. Küləyin yolu uzundu.

Canavarın burun pərələri titrəyirdi, heyvan qan iyi almışdı, amma bu iydə nəsə başqa bir şey vardı: ac heyvanın iştahası küsmüşdü. Tilsimlənmiş kimi yerindən də tərpənə bilmirdi, tükü tökülüb nazilmiş quyruğunu böyrünə qısıb mat-mat ətrafına baxırdı, arxasındakı meşənin qalınlıqlarında uzaq küləyin qopardığı hənirtini dinləyə-dinləyə yadına salmaq istəyirdi ki, görəsən, bu qarma-qarışıq, ancaq tanış səsləri əvvəllər harada və haçan eşitmişdi? Və bu qan iyindən niyə başı gicəllənir?.. Canavar bir də yan-yörəsinə baxdı, ucları saralmış otların arasında vurnuxan dozanqurdlarını gördü, bir də bir əqrəb cəsədi gördü. Dozanqurdları əqrəbin qarnına daraşmışdılar. Canavar yadına nəsə yaxşı bir şey salmaq istədi. Yeddi günbatan əvvəl sinəsindən yaralanmış, torpağın üstündə çabalayan turacı xatırladı... Oxqay! Xudaya, necə ləzzətlə quşu parçalayıb yemişdi: qorxusuz, çənəsinə güc verə-verə, arxayın-arxayın. Çünki yeddi günbatan əvvəl bu böyük

meşədə, deyəsən, canavardan savayı bir Allah heyvanı qalmamışdı – ayılar, çaqqallar, cavan canavarlar dəmir libaslı ikiayaqlı bəndələr bu tərəflərdə məskən salandan sonra meşəni tərk etmişdilər. Düşərgənin yaxınlığında, bu payız axşamı saralıb-qızaran meşədə indi, deyəsən, elə bu qoca canavar qalmışdı. Meşənin bu gün yeganə ağası bu canavar idi. Baba Kahadan gələn xəbərdarlıq olmasaydı – canavar tez-tez uzaqdakı vələsin kəlləsinə qorxa-qorxa baxırdı – arxasındakı meşədə vahiməli hənirti eşitməsəydi, beləcə, burada oturub oradan-buradan fikirləşərdi: bəlkə, Allahın yazığı gəlib, bilmək olmaz bu dünyanın işlərini, bir dənə də turac ona yetirərdi. Canavara nə lazımdı ki?.. Həftədə bircə kərə qarındolusu yemək və can rahatlığı. Qarın ac olanda can rahatlığı da olmur. Bu sarıdan ikiayaqlıların bəxti gətirib: ac olanda bir-birilərinə şirin nağıllar danışırlar. Ələlxüsus onların padşahları – arıq, çəlimsiz, gözlərindən əqrəb kini yağan, dişləri çürümüş kişi zərli-naxışlı xələtinə bürünüb çadırından çıxanda ac sərbazlarına elə gözəl-gözəl və şirin sözlər deyir ki! Səbir edin, qarnımız ac olsa da, başımız üzərində Allah var, əməllərimiz haqdır, bu son mərhələni də keçək, yeməyiniz o qədər bol olacaq ki, o qədər yeyəcəksiniz ki, lap kişilikdən düşənə qədər. Ətiniz bol olacaq, libaslarınız zərli-baftalı, dünyanın ən gözəl qadınlarını ayaqlarınız altına atacam!.. Doğrudan, bu ikiayaqlılarda sehrli bir hikmət var: şirin söz eşidəndə qarınları doyur, daha aclıqdan şikayət eləmirlər. Bir yerə yığışıb, padşahlarını dövrəyə

alıb qışqırırlar: eşq olsun, eşq olsun! Sonra dizi üstə çöküb gözəgörünməzə yalvarırlar: Xudaya, sən bizim ömrümüzdən kəsib hökmdarın ömrünə cala!..

Canavar yenə dozanqurdlarına tərəf baxdı. Həşəratlar sevincdən göyün yeddinci qatında idilər, qarınlarını doldurmaqla məşğuldular. Canavarın beyninə birdən qəfil bir fikir gəldi: görəsən, əqrəb özü ölüb, ya dozanqurdları onun axırına çıxıblar?.. Çünki belə zamanda nə desən olar. Bu qəfil fikirdən bədəni ürpəşdi, dik qulaqları əyilib sallandı. Bir yandan da meşədəki hənirti. Burnuna dolan bu qəribə qan iyi də o biri yandan.

Göyün bozumtul işartısı artmışdı, ulduzların da sayı elə bil çoxalmışdı. Hərəsi bir alma boyda idi. Haradansa topa-topa, əcaib-əcaib – baxanda zəhm yarılırdı – buludlar axışıb gəlirdi, əjdaha karvanı kimi, əqrəb qatarı kimi. Ulduzların altından, çox-çox aşağıdan burula-burula günbatana doğru axırdılar. Quşlar da kirimişdi. Axşam qaranlığına lap az qalırdı. Havadan yenə dəmir və qan iyi gəlirdi...

Düşərgədə tonqalları alışdırmağa başlamışdılar. Birikisinin ətrafına at təzəyi yığılmışdı: qaranlıq çökəndən sonra tonqallara atacaqdılar. Payız olmasına baxmayaraq, burada atmilçəyi boyda qara ağcaqanad əlindən tərpənmək olmurdu.

Nizəli-qalxanlı adamlar ikibir, üçbir geniş düşərgənin müxtəlif səmtlərindən tonqallara sarı gəlirdilər, yaxınlaşıb dururdular, uzaqlardakı hənirti-xışıltını dinləyirdilər. Bu nizəli-qalxanlı adamlar dünyanın bütün

məşəqqətlərinə dözməyə hazırdılar: ağcaqanada, atmilçəyinə, ilana-əqrəbə – nə olur olsun, "uf" da deməzdilər. Bircə o külək əsməyəydi. Keçən dəfə, iki il bundan əqdəm, həmin bu yerdə düşərgə salıb yürüşə hazırlaşanda Baba Kahadakı külək güc yığıb-yığıb bura şığımışdı – İlahi, özün kömək ol, İlahi, bu müsibətdən yazıq bəndələrini özün hifz elə! Şığımışdı – qəfil ildırım kimi, yanar dağ püskürtüsü kimi, arxadan kürəyin ortasına sancılan nizə ağrısı kimi şığımışdı, havanı qamçılaya-qamçılaya, qantarğaları gəmirib ağzı köpüklənən atları şahə qaldıra-qaldıra, zəlzələ uğultusu ilə, torpaqda açdığı dərin şırımlarda sərbazları yaraqlı-yasaqlı basdıra-basdıra və göydə uçan quşların qanadlarını qıra-qıra şığımışdı. O zaman baş münəccim hökmdarın çadırında, dəvə yunundan toxunmuş kilimin üstündə dizi üstə çöküb başını yerə vura-vura çığırmışdı: "Hökmdar, əmr et, əmr et, ordu geri qayıtsın, Tanrının bizə qəzəbi tutub!" Hökmdar qorxudan gözləri bərəlmiş, dişləri bir-birinə dəyən münəccimi belə görəndə özü vahiməyə düşmüşdü. Hələ üstəlik çadırın küləyin həmlələrinə çox davam gətirə bilməyəcəyindən qorxub tələş içində eşiyə çıxmışdı, çıxan kimi də yıxılmasın deyə iri bir ağacın gövdəsindən bərk-bərk yapışmışdı. Hələ ayaq üstə durmağa tutarı qalmış bir neçə sərbaz hökmdarı bu vəziyyətdə görüb tez onu dövrəyə almışdı. Hökmdar gözləri qarşısında açılan mənzərəyə baxa-baxa ucadan çığırmışdı: "Bu, Tanrının qəzəbi deyil, şeytanın əməlidir!" Amma dediyini nə özü eşit-

mişdi, nə də onu dövrəyə alıb dayanmış sərbazları... Çox sonra, gecənin zil qaranlığı düşərgəni görünməz edəndən sonra, külək gücdən düşüb Baba Kahadakı yatağına çəkiləndən sonra tələm-tələsik yenidən qalanmış tonqalların işığında qıc olub bir-birinə qarışmış adam və at cəsədləri görmüşdü. Atların da, adamların da ağzından yaşıl köpük axırdı, atların da, adamların da gözləri açıq qalmışdı və hər gözdə alma boyda bir ulduzun əksi parlayıb yanırdı. Göydə isə bircə ulduz da qalmamışdı. Münəccim yerə yıxılıb hökmdarın ayaqlarını qucaqlamışdı, hönkür-hönkür ağlamışdı.

Dərd də azar kimi, gələndə batmanla gəlir, bacım!..

Hökmdarın çadırından cüssəli bir sərbaz çıxdı, keşikçilərdən birinə nəsə dedi. Keşikçi yerindən tərpənib başqa bir çadıra sarı yönəldi. İçəri keçdi. Bir azdan düşərgəyə səs yayıldı ki, hökmdar çimməyə hazırlaşır. Xacə Ənvəri yatağından qaldırdılar.

İki iri tonqalın odunu hazırlandı. Nizəli-qalxanlı adamlardan iki dəstə ayrıldı, hər dəstədə on nəfər. Hər dəstə düşərgənin ayağından, taxıl və sursat saxlanan yerdən sürüyə-sürüyə bir çən gətirib tonqalların üzərinə qaldırdı, torpağa basdırılmış dayaqların iri dəmir qarmaqlarına keçirdi. Sonra su daşındı, çənlər doldu, tonqallara od vuruldu. Quru odunlar od intizarında imiş kimi birdən alışdı, od iki nəhəng əjdaha dilitək qıvrıla-qıvrıla yuxarı qalxıb çənlərin altını yaladı... Bir azdan su qaynayacaqdı, su qaynayandan sonra onu mis parçalarla hökmdarların çadırına daşıyacaqdılar, orada üçüncü

çəni qaynar su ilə dolduracaqdılar. Daha sonra çadırda bir hökmdar qalacaqdı, bir də xacə Ənvər. Hökmdarın eybindən hamının xəbəri olsa da, özü çimmək mərasimi zamanı çadırda ancaq xacə Ənvəri saxlayırdı. Əvvəla, ona görə ki xacə Ənvər onu çimizdirirdi, ikinci də, isti suya girəndən sonra bədəninin axtalanmış yerindən qopan ağrıya bəzən dözə bilmədiyi üçün sızıldamağa başlayırdı. Hökmdar istəmirdi ki, xacə Ənvərdən savayı bir Allah bəndəsi onun bu halını görsün. Canı lap bərk ağrıyanda, ağrı iki paçasının arasından fəqərə sütunu boyu yuxarı qalxıb bütün bədənini çulğalayanda hökmdar xacə Ənvərin yanında göz yaşlarını axıtmaqdan da çəkinmirdi. Onda xacə Ənvər hökmdara təsəlli verməyə başlayırdı. İllər boyu davam edən bu mərasim, qoca və vəfalı nökərin təsəllisi ya bu sözlərlə başlayırdı, ya qurtarırdı: “Adil hökmdar, müsəlman aləminin yarısı axtadır, ürəyinə təpər ver. Bu, bəla deyil, bu, böyük xoşbəxtlikdir ki, ulu Tanrı sənnən mənə bəxş edib. Ürəyinə təpər ver, başına dönüm!” Hökmdar damarları qabarmış, çalın-çarpaz arıq əzələləri görünən qolunu qaynar suya salıb iki paçasının arasına aparırdı, kiçilib ələgəlməz olmuş kişiliyini tapıb bərk-bərk sıxırdı – elə bil ağrını orada saxlamaq, boğub susdurmaq istəyirdi. Xacə Ənvər isə ayaqları altındakı iri teştin içindən saray loğmanının min bir ətirli otdan, çiçəkdən hazırladığı köpüklü mayedən ovuc-ovuc götürüb hökmdarın bədəninə yaxırdı, sonra baş barmaqlarına güc verib polad təkin bərkimiş əzələlərin qulluncunu qıra-qıra özü ləzzətlə “oxqay” deyirdi.